Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**




# Azərbaycanın ədəbiyyat paytaxtı Şamaxı

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Azərbaycanın ədəbiyyat paytaxtı
# Şamaxı

Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış tövsiyə biblioqrafiyası

Bakı-2016

**Tərtibçi:** **Nazilə Tahirova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycanın ədəbiyyat paytaxtı Şamaxı:** tövsiyə biblioqrafiyası /tərt. ed. N. Tahirova; red. və bur. məs. Ş. Qəmbərova; F. Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.-38s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016**

## Tərtibçidən

Azərbaycan xalqının zəngin qeyri-maddi mədəni irsi minilliklər boyu milli şüurumuzu formalaşdıran əsas mənbələrdən biri olmaqla xalq yaradıcılığının nailiyyətlərini özündə ehtiva edən unikal fenomendir.

Qeyri-maddi mədəni irsimizin təbliği və təşviqi məqsədilə nazirlik tərəfindən həyata keçirilən "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" proqramının bölgələrə verdiyi müsbət töhfələri nəzərə alaraq görülən işlərin yeni formada davam etdirilməsi qərara alınıb. Bu məqsədlə yeni "Xalq yaradıcılığı paytaxtları" proqramı təsdiq olunub. Proqramla əlaqədar 2015-ci il üçün Şamaxı şəhəri "Azərbaycanın ədəbiyyat paytaxtı" və Qax şəhəri "Azərbaycanın milli mətbəx paytaxtı" elan edilib.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi “Azərbaycanın ədəbiyyat paytaxtı Şamaxı” adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Oxucular üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar Azərbaycan və rus dillərində öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Nəşrlə bağlı rəy və təkliflərinizi F.Köçərli adına Respublika Uşaq Kitabxanasına göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç.88;
**E-mail:** childlibbaku@yahoo.com

Bu gün Şamaxı rayonunun bütövlükdə inkişafına böyük diqqət göstərilir. Şamaxı çox gözəl rayondur və Azərbaycanın qədim torpağıdır. Mən çox istəyirəm ki,burada quruculuq abadlıq işləri daha da surətlə getsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

... Şamaxının bir adı bəsdir.
Şirvanın tacı Şamaxıdır.

***(el deyimləri)***

Azərbaycanın zəngin ədəbiyyatı var. Eyni zamanda ayrı-ayrı bölgələrimiz özünəməxsus ədəbi ənənələrə malikdir. "Ədəbiyyat paytaxtı" elan olunan rayonlarımızda xüsusilə gənclərimizin ədəbiyyata, sözə-sənətə marağı artacaq. Şamaxı ta qədimdən istedadlı şair və yazıçılar ilə, sözə, sənətə münasibəti ilə fərqlənmişdir.

***Əbülfəz Qarayev***
*mədəniyyət və turizm naziri*

XVI əsrdə ingilis səyyahı A.Sennipson (1562-ci il) "Şamaxını qəşəng hökmdarlar şəhəri" adlandırır.

Ceffri Deket isə" bütün Midiyanın ən yaxşı şəhəri" kimi vəsf edir.

***A.Sennipson, Ceffri Deket***
*ingilis səyyahları*

# Giriş

Dünyanın qabaqcıl ölkələrinin mədəniyyət siyasəti sahəsində təcrübələri nəzərə alınmaqla, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycanın qeyri-maddi mədəni irsinin (diyarşünaslıq, folklor, sənətkarlıq) qorunması və dəstəklənməsi istiqamətində islahatlar aparılır.

Bu məqsədlə yeni "Xalq yaradıcılığı paytaxtları" proqramı təsdiq olunub. Proqramla əlaqədar 2015-ci il üçün Şamaxı şəhəri "Azərbaycanın ədəbiyyat paytaxtı" və Qax şəhəri "Azərbaycanın milli mətbəx paytaxtı" elan edilib.

Layihə bölgələrdə mədəniyyətin, incəsənətin, sənətkarlığın və turizmin inkişafına böyük töhfə verib, respublika və beynəlxalq səviyyəli tədbirlər təşkil edilib. Layihənin həyata keçirilməsi bölgələrimizin mədəni həyatına yenilik gətirib.

“Xalq yaradıcılığı paytaxtları”nda keçirilən bir sıra tədbirlər artıq ənənə halını alıb. Masallıda «Folklor festivalı», Qəbələdə «Mürəbbə festivalı», Şəkidə «Şirniyyat festivalı» belə tədbirlərdəndir.

Bütün bunları nəzərə alaraq proqram bu dəfə “ədəbiyyat və milli mətbəx” nominasiyaları ilə həyata keçiriləcək.

Bu münasibətlə martın 4-də Azərbaycan Xalça Muzeyində 2015-ci ilin “Xalq yaradıcılığı paytaxtları”nın təqdimat mərasimi keçiriləcək. Şamaxı və Qax rayonlarında il ərzində nominasiyalara uyğun olaraq təntənəli mərasimlərin, konfrans, dəyirmi masa, konsert, festival, sərgi, yarmarka, infrotur və s. tədbirlərin təşkili nəzərdə tutulub.

## Ədəbiyyatı

“Şirvan ədəbi mühiti”- dedikdə, onu əlahiddə bir ada kimi deyil, Şimallı-Cənublu Ümumazərbaycan kontekstində, özünəməxsus keyfiyyətləri üzə çıxarmaq istəmişik. Şirvan tarix boyu özünün Söz sərvətilə tanınıb. Şirvan ərazicə o qədər geniş olmasa da, dünyaya verdiyi ruh və fikir nəhənglərinin sayı və keyfiyyətinə görə lider olaraq qalır. Yetirdiyi dahi şairlər baxımından, söz sərrafları, Şamaxını ancaq İranın Şiraz vilayətilə müqayisə edirlər.

XI əsrdə Şamaxıda dünyaya gəlmiş şairlərdən Şeyx Məhəmmədəli Əbu Əbdullah Baba Kuhi (931-1051), Pir Hüseyn Şirvani (954-1054), Əbu Nasir Şirvani (993-1079) yazıb-yaratmışlar.

XII əsrdə Şamaxıda doğulmuş şairlərdən Əcəmi Xaqani Şirvani (1126-1199), İmam Şəhabəddin oğlu İbn Cəhl Şəhabəddin (1063-1138), İzzəddin Əmir Şirvani (1120-1165), Fərrux Şirvani (1125-1176), Xoca İmadəddin Şirvani (1164-1192), Fəthəli Şirvani (1111-1174), Vəhidəddin Kafiyəddin oğlu (1149-1178), Sənan Şirvani (1076-1167), Əsirəddin Şirvani (1170-1200) yazıb-yaratmışlar.





XII - XIII əsrlərdə Ümumislam mədəniyyəti qanunları ilə yanaşı, milli kökənli üsul və üslublardan da istifadə etmək bu dövrdə yaşayıb-yaradan Şirvan şairləri üçün xas cəhət idi. Səlcuq-Türk dövlətlərinin meydana gəlməsi anadilli ədəbiyyatın sıçrayışlı inkişafına böyük şərait yaratsa da, hələ ki, Şirvanda inersiya ilə farsca yazırdılar. Musiqinin müşaiyətilə oxumalarda şairlərin qəzəllərindən istifadə edirdilər. Xanəndələrə "xuniyəqər" (oxuyan) deyirdilər. Oxunan şeirlərə küll halında "qaul" adı vermişdilər. İlk baxışdan sevgini tərənnüm kimi görünən şeirlərin çoxu gizli rəmzi anlamlarla dini-mənqəbəvi, fəlsəfi, sosial mövzuları da əhatə edirdi. Bu dövrdə qəzəldən başqa qəsidənin Mədhiyyə (hər hansı şəxsin tərifi), Həcviyyə (fərdin söyülüb yamanlanması), Fəxriyyə (özünütərif), Sövgəndnamə (andiçmə), Şikayətnamə və ya "bass əş-şəkvə", Həbsiyyə, Xamriyyə (içkinin tərifi), Əxavaniyyə (qardaşlıq), Saqinamə kimi janrlardan geniş istifadə olunurdu. Ancaq axirəti düşünməklə irfani şeirlər, bu dünyanın iztirablarını təsvir etməklə "nigarani əz zindəgi" (həyatdan nigaran nəzm) ərsəyə gəlirdi. Oxucunun beynini məşğul etmək üçün tapmaca xarakterli Lüqəz, Müəmma, əbcəd hesabı ilə hər hansı bir hadisənin tarixini gizli söyləyən Maddi -tarix kimi şeir janrlarından da istifadə edirdilər. Saraylarda baş şair vəzifəsi "məlik əş-şüəra" adlanırdı. Bu daimi bir vəzifə deyildi, şahların zövqünə uyğun olaraq tez-tez dəyişdirilə bilinirdi. Şairlərin deyişməsi "münazirə" adlanır. Yüksək əda ilə şeir yaratmaq "müfaxirə", təbiətin təsvirləri "vəsfi-təbiət", şəhərlərin təsviri "vəsfi-şəhrha", xarabalıqların təsviri "ətlal" və ya "diman", dəvələrin təsviri "şuturiyyə", atların təsviri "əsbiyyə" adlanaraq müxtəlif şeir şəkillərində: rübai, qitə, müfrəd, dübeyti, qəsidə, qəzəl, tərci-bənd, tərkib-bənd, müsəmmət, müstəzad və məsnəvi kimi janrlarda mövzular öz təzahürünü tapırdı. Əgər təsvir şairin fərdi keyfiyyətləri, müsbət cəhətləri, əsil-nəcabəti haqqında olardısa, şeir "mufaxirə" adlanırdı. Aşiqlərarası münasibətləri qəzəllə deyirdilər.Yaxın adamın itkisini "mərsiyə", ("risa" ərəbcə,

ağlamaq deməkdir) və ya "driğa" (farsca, təəssüf deməkdir) ilə bildirirdilər. Gecə namazlarından sonra dua etmək vaxtı oxunmaq üçün şairlər "münacat" yazırdı. O zamanlar mətbuat olmadığı üçün yerini şeirlər tuturdu. "Şəhraşub" deyilən şeir janrı da vardı, şəhərə vəlvələ sala biləcək təsvirləri (konkret bir gözəlin, qayda-qanunu pozan quldurun, rüşvətxorun, cinayətkar əməl törədən bazar adamının) əyani, ünvanlı şəkildə deyilir, oxucu bu mənzum felyetonu (həcmcə kiçik rübai də ola bilər) oxuyub məsələdən hali olurdu. Şairlər haqq sözün daşıyıcısı, ədalətin tələbkarı missiyası daşıyırdı. Bu zaman kəsiyində yaşayan şairlərin demək olar ki, hamısı ölkənin ictimai-siyasi həyatında görkəmli rol oynamışlar.

XIII əsrdə Şamaxıda fars və ərəbcə yazıb yaradanlar sırasında Qiyasəddin Şirvani (1176-1261), Zeyfun Şirvani (1211-1275), Seyid Zülfiqar Şirvani (1192-1305), Hüseynəli İbn Əbdullah Diri Baba (1208-1276), Mühəzzəb Dain Şirvani (1226-1294), Fəxrəddin Əl-Məstəri (1241-1298) nümunə göstərilə bilər.

XIV əsrdə yaşamış şairlərdən Seyid İmadəddin Nəsimi (1369-1417) Asif Şirvani (1342-1396), Molla Qasim Şirvani (1230-1335), Şah Xəndan Julidə Mu (1367-1446), Məhəmməd Saleh Bakuvi Şirvani (1332-1390) yazıb-yaratmışlar.

XV əsrdə yaşamış şairlərdən Aşiq Köçər (1420-1480), Şəmsəddin Məhəmməd oğlu Bədr Şirvani (1387-1450), Həzini Şirvani (1428-1479), Əbu Bəkr Şirvani (1398-1468), Əbu Həmid Şirvani (1428-1479), Əbu Tahir Şirvani (1397-1465), Şəms Şirvani (1403-1478), Mirzə Ərsəl Şirvani (1421-1450), Kəmaləddin Məsud Şirvani (1431-1499), Əbdürrəhim Kəmaləddin Şirvani (1442-1479), Əbdülməcid Şirvani (1418-1498) yazıb-yaratmışlar.

XVI əsrdə yaşamış şairlərdən Asəf Şirvani (1552-1599), Həlimi Şirvani (1520-1586), Mir Qədr Şirvani (1511-1654), Mir İlahiyi Şirvani (1542-1583), Şəmsi Şirvani (1442-1599), Nitqi Şirvani (1522-1584), Xəzani Şirvani (1527-1580), Abbas Bayat (1522-1564), Əmir Cəmaləddin Şirvani (1513-1587), Mir Qədir Şirvani (1532-1576), Mirzə Əsrük Şirvani (1502-1567), Səhli

Kəmaləddin Mir Hüseyn oğlu (1516-1594), Əbdüllətif Şirvani (1556-1602) yazıb-yaratmışlar.

XVII əsrdə yaşamış şairlərdən Dusti Şirvani(1587-1643), Nişani Şirvani (1608-1667), Mirzə Ağa Hüseyn Zülali (1687-1739), Ağabağır Hacı Səfəralı oğlu Şirvani (1666-1701), Kərim Bəy Lütfi (1613-1667), Ətiqi Şirvani (1587-1669), Əbu Tahir Şirvani (1635-1683), Müzəffər Şirvani (1610-1687), Mir Yəhya Mir Qulu oğlu Yəqni (1575-1658), Molla Mirzə Şirvani (1591-1679), Mir Haşım Şirvani (1606-1670), Məhbub Şirvani (1603-1658), Abdulla Mahir Şirvani (1676-1723) yazıb-yaratmışlar.

XVIII əsrdə yaşamış şairlərdən Ağa Məsih Məhəmməd oğlu Şirvani(1687-1765), Məcruh Şirvani (1692-1785), Bidil Şirvani (1696-1764), Nişat Şirvani(1673-1759), Baba Şirvani (1732-1785), Cəlal Şirvani (1767-1827), Cəhli Şirvani (1743-1789), Əsgər Şirvani (1768-1811), Əhməd Şirvani (1785-1840) Vaiz Əfəndi Şirvani (1744-1803), yaşayıb yaratmışdır.

XIX əsrdə yaşamış Şirvan şairləri: Bu dövrdə yaşamış Şirvan şairlərinin yaradıcılığına xas əsas cəhət odur ki, ictimai-siyasi hadisələrin yüzilliklər boyu formalaşan strukturu dəyişmiş, söz əhlinə diqqət və qayğı azalmış, şeirlərin ümumi mövzusunda ya rəmzi, ya da müstəqil şəkildə ifadə olunan həyatdan narazılıq motivləri güclənmişdi. Xanzadələr, bəylər artıq özlərini öz evinin küll ixtiyar sahibi kimi apara bilmir, əsl ağanın Rus imperatoru olduğunu hər addımda dərk edirdilər. Şairlərin mədhlərinə tələbat azalmış, şairlər ən zəruri məişət tələbatından ötrü ağalara mənzum xahişnamələr göndərirdi. İqtisadi vəziyyətin necə tənəzzülə uğradığını onunla bilmək olar ki, qışda geymək üçün kürk… hətta bir neçə çanaq buğda istəməyi şairlər özlərinə ayıb bilmir, bunu mənzum şəkildə ifadə edirdi. Böyük ənamlardan, yüksək qələmiyyələrdən heç söz belə gedə bilməzdi. Bəylərin özü İmperator xəzinəsinə ödədikləri vergiyə müvafiq hökumətdən məvacib alırdı. Ona görə də, şairlərin həcv deyən dillərinə düşməməkçün az miqdar hədiyyə verməklə mədhnamələrdən imtina etmirdilər. Rus çarizmi bərqərar olandan sonra,

Azərbaycanda ədəbi məclislər yaratdı. Təsadüfi deyil ki, quberniya mərkəzinə yaxın Gəncədə 1820 ildə “Divani -hikmət” (“Hikmət evi”) Azərbaycanda qurulan ilk ədəbi məclis oldu.

Mirzə Ələkbər Sabir “pula pərəstiş edən şair”i ən pis sözlə damğalayır.

Onu da deyək ki, ədəbi məclisləri təşkil edənlər çar xəzinəsindən ayrıca məvacib alırdı. Şamaxıdakı “Beyt üs-Səfa” (Saflıq evi) ədəbi məclisi də bu mənada istisna deyil. Məclis elə yarandığı gündən nüfuzlu şairlər hesabına cərgələrini sürətlə artırdı və başqa ədəbi məclislərimizə nisbətən daha çox istedadlı şair yetişdirərək diqqət mərkəzində oldu.

Ənənə üzrə şaha farsca mədhlər yazan şairlər rusca bilmədikləri üçün, yenə də farsca, ancaq indi Rus imperatoruna ünvanlandırdıqları mədhlərdən gözlənilən cavabı almırdı. Bu janr XIX əsrdə öz gərəkliliyini itirdiyi üçün qəzəl və qoşma ilə müqayisədə daha az istifadədə qaldı. Həcvlərin sayı çoxaldı. Bu janrda nadir halda sənətkarlıq nümunələri meydana gəlirdi. İctimai mahiyyətdən çox, fərdi münaqişə zəminində çoxmərtəbəli söyüş və təhqirlər, effemizmlər poetik sözü əvəz edirdi. Kimin kimdən bir balaca narazılığı olurdusa, bunu qafiyə və ritmə salıb xoşagəlməz söz yığını ilə “nəzm” nümunəsi yaradıb özünə şairlik imici qazandırmaq istəyirdi.

XIX əsrdə Şirvanda Ələkbər Zeynalabdin oğlu Tahirzadə (Sabir) (1862-1911), Seyid Əzim Şirvani (1835-1888), Mirzə Nəsrullah Hacı Əbdülqasim oğlu Bahar Şirvani (1834-1883), Kərbalayi Qurban Məhəmməd oğlu (1832 – 1899), Nadim Mirzə Baxiş (1785-1880), Naseh Ağaəli bəy Əfəndizadə (1856-1918), Əliəkbər Qafil (1828-1891), Sədrəddin Şirvani (1777-1835), Didə Mövlanə Mirzə Nəsrullah bəy Qurbanbəy oğlu Qurbanbəyov (1797-1870), Hacı Məhəmmədəli Axund İskəndər oğlu Şirvani (1783-1859), Haci Zeynalabdin Axund İskəndər oğlu Şirvani (1780-1838), Əsgər Şirvani (1827-1875), Ağababa Zühuri Məşhədi Əbdullah oğlu (1848-1911), Azay Səfəralı oğlu (1844-1918), Allahverdi Rəfi oğlu (1810-1896), Kərbəlayi Arif Allahi

(1786-1866), Huşyar Xınıslı (1829-1914), Asi Molla İbrahim oğlu (1826-1888), Axundzadə Ağacavad (1875-1921), Kərbəlayi Molla Pənah oğlu Fəqir (1842-1914), Əza Məşhədi Ağa HacıI Rəsul oğlu (1870-1912), Əsir Zakir Əliabbas oğlu Şirvani (1882-1940) yaşayıb- yaratmışlar.







Yaxın Şərqdə inqilabi satiranın banisi kimi böyük missiyanın daşıyıcısı **M.Ə.Sabir** Azərbaycan ədəbiyyatında intermediya, mənzum siyasi pamflet, mənzum felyeton janrlarının da yaradıcısıdır. Millətin ruhi keşiyində öz ifşaedici güclü sözü ilə güzəştsiz xidmətdə dayanan Seyid Əzim Şirvani, bu missiyanı şagirdi Mirzə Ələkbər Sabir Tahirzadəyə ötürüb, hətta öz kitabını görmək kimi kiçik bir sevinclə də fərəhlənmədən bu dünyanın əziyyətlərindən qurtardı. Seyid Əzim Şirvaninin məktəbində həm dini, həm də dünyəvi elmləri ən yüksək dərəcədə öyrənmiş Sabir xalqını, Vətənini, dinini bütün hüceyrələrinə qədər nurlu bir məhəbbətlə sevib onun tərəqqisi yolunda varından, ailəsinin rifahından, əsəblərindən, canından hər an keçməyi bacarırdı. Sabirin HOPHOPNAMƏsi zamanın ruhi ensiklopediyasıdır. Sabir camaatın hansı fikir və etiqadla yaşadığını sadə, olduqca təsiredici və bir kəlmə artıq söz işlətməyən yüksək sənətkarlıqla söyləyirdi. Sabir millətin genetik yaddaşında olan ən yüksək poetik rəmzləri, deyim tərzlərini satirası üçün üslub seçməklə ən təsiredici məqamı tuta bildi. Millətin irəliləməsinə yönələn elə bir məqam yoxdur ki, Sabir ona özünün mərdanə münasibətini bildirməmiş olsun. Yüz ildən artıqdır ki, "Allah Sabirə rəhmət eləsin, gör nə gözəl deyib…"- deyə millətlə bağlı hər məsələyə dair onun sözü sitat gətirilməkdədir.

**Məhəmməd Hadi** (1879-1920), **Abbas Səhhət** Mehdizadə (1874-11 iyul 1918) Şamaxının son dövr klassiklərindəndir. Şamaxıdan çıxan əsl ziyalılar kimi Abbas Səhhətin, Məhəmməd Hadinin yaradıcılığının mahiyyətini əgər bir sözlə ifadə etməli olsaydıq, ancaq "Vətən yanğısı" ifadəsini işlədərdik.

 

**ÇAĞDAŞ ŞİRVAN ŞAİRLƏRİ**. Son yüz ildə bir birini çox sürətlə əvəz edən tarixi hadisələr Azərbaycanın mənəvi həyatına da təsirsiz keçməmişdir. Yüz illərlə formalaşan əsl şair obrazına Şirvan kökənli şairlər xəyanət etməmiş, xəlvətə çəkilmiş, öz poetik Mənini siyasi gedişlərin oyuncağına çevirməmişlər. Klassik ənənələr bazasında pərəstiş tapan Şirvan şairləri kolxoz-sovxoz, neft-pambıq, Allahsızlıq mövzularının şeirlə uyğunluğunu təsəvvür belə etməmişlər. Elə ona görə də, Sovet hakimiyyəti dönəmlərində poeziya liderliyindən könüllü surətdə imtina etmişlər. Ancaq könül çırpıntılarına köklənən dərin mənalı sözlərin eşqi ilə yaşayan Şirvan şairlərindən bir sırası üzə çıxmaq istəməmiş, bir sırasını da düşüncə tərzinə görə mövcud rejim təqdir etməmişdir.

Sovet ədəbiyyatının İrfan məktəbi və İlahi həzzlərdən uzaqlaşması, sözü şüar şəklində qışqırıqlı, birbaşa və kobud demək vərdişləri yüzillər boyu formalaşan zərif, fəlsəfi, gözəl deyim tərzlərinə istehza olunması Şirvanlı yazarları çaşdırmış, üzə çıxmamaq şərtiylə "sandıq ədəbiyyatı" nümunələri yaratmışlar. Onlardan bir sırası sonradan işıq üzü görmüşdü. Bu həm nəzm, həm də nəsr əsərlərinə aiddir. Bununla belə, qələmini ədəbiyyat

sahəsində sınayaraq müəyyən mövqeyə çatan şirvanlılar panteonu da yaranmağa başladı.

Əzizə Cəfərzadə (1921-2003), Fikrət Sadıq (30.5.1930), İskəndər Etibar (15.2.1937), Osmanov Elxan Əbdürrəhman oğlu (19.12.1962), Orxan Fikrətoğlu (1966), Rəşad Bəydəmirli (1952) istedadlı qələm sahibləridir.

Ağakərim İsrafilbəyli xanəndə kimi tanınsa da, Nafiz təxəllüsü ilə klassik üslubda gözəl qəzəllər, saqinamələr, qitələr yazır. Onun 2010-cu ildə "Ustadi-əzəm" kitabı nəşr olunub. Kitab XIX əsrdə yaşamış şamaxılı xanəndə - şair Mirzə Məhəmmədhəsən Fələkizadə Şirvaniyə həsr edilib. Kitabda Nafiz öz nəzmindən nümunələr də verib.

Azərbaycan ədəbiyyatının Sovet və müstəqillik dövründə Qürbət Əziz, Güləli Rəsul, Şaban Qayıbov, Tahir Taisoğlu, Nadir Mərzəngəli, Mirzə Xələfli, Etibar Etibarlı, Faiz Üzgün, Bünyad Bünyadzadə, Faiq Cəmcəmli, Süleyman Zərbəliyev, Əbülfəz Məlhəmli, Fəxrəddin Nasiroğlu, Əzizxan Qədirov, Şəhriyar Rəşadoğlu və başqaları şeir yaradıcılıqlarında Şamaxı ədəbi mühitinin gözəl ənənələrini yaşatmağa çalışmışlar. Burada ədəbi mühit indi də var.

Yazıçılar Birliyinin Şamaxı bölgəsi və ayrı-ayrı kənd kitabxanalarında ədəbiyyat dərnəkləri fəaliyyət göstərir. Bura, bəlkə də, Azərbaycanda yeganə bölgədir ki, demək olar, hamı şeir yazır. Şamaxının yorulmaz və məhsuldar tədqiqatçısı, filologiya elmləri doktoru Seyfəddin Qəniyev Şirvandan çıxan iki min şair və aşığın yığcam bioqrafiyası və şeirlərini toplayıb. Saf-çürük edəndən sonra, iki cildlik məlumat kitabı hazırlayıb. Birinci kitab "Şirvanın 565 şairi" adıyla 2014-ci ildə "Nurlan" nəşriyyatında nəşr edilib. İkinci cild "Şirvanın 555 şairi" adını daşıyır və öz naşirini gözləyir. Bu kitablara toplanan faktlar Şirvanın son əsrdə yetirdiyi şair və aşıqlar haqqında daha dolğun bilik verir.







# Tarixi

Azərbaycanda şəhərsalma mədəniyyətinin ən qədim mərkəzlərindən olan Şamaxı şəhəri Azərbaycan Albaniya dövlətinin ən iri yaşayış məskənlərindən biri idi. Tarix boyunca davam edən dəhşətli zəlzələlər zamanı təkrar-təkrar yerlə-yeksan olmuş və dəfələrlə yerini dəyişmiş Şamaxının arxeoloji qazıntılar zamanı ən qədim yerini müəyyən etmək mümkün olmasa da, antik müəlliflərinin yazılı məlumatları və Şamaxı şəhəri yaxınlığındakı Xınıslı qazıntılarının nəticələrinə görə Şamaxı şəhərinin ən azı 2500 il yaşı vardır.

Şamaxının adı ilk dəfə antik mənbələrdə – yunan coğrafiyaşünası Klavdi Ptolomeyin "Coğrafiya" əsərində Albaniya ölkəsinin 29 şəhəri sırasında "Mamaxiya" "Camaxeya" və ya "Kemaxeya" formasında çəkilir. Sonralar mənbələrdə şəhər "Kemaxiya", "Əşşamaxiyyə", ərəblər adını dəyişdirdiyi zaman qısa müddət "Yezidiyyə" və sonra yenidən bu günə kimi "Şemaxi" və "Şamaxı" adlandırılmışdır.

Qədim yaşayış məskəni yerində tədricən bir şəhər kimi formalaşan Şamaxı obyektiv səbəblər üzündən zaman-zaman sərhədlərini dəyişdirməli olsa da, bəzən hətta xarabalıqlar içindən yenidən baş qaldırsa da, erkən orta əsrlərdə də bir şəhər kimi varlığını və əhəmiyyətini qoruyub saxlaya bilmiş, Xilafətin hakimiyyəti illərində isə tədricən mühüm ictimai-iqtisadi və siyasi mərkəzə çevrilmişdir.

IX əsrdən başlayaraq Şamaxı şəhəri haqqında mənbələrdə çox geniş məlumat verilir. Bu 918-ci ildə hərbi-strateji baxımdan çox əlverişli mövqedə yerləşən qədim Şamaxının Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsi ilə bağlıdır.

Dövrün ərəb coğrafiyaşünasları, səyyahları Şamaxı şəhərini "Şəməxiyyə" adlandırırlar. Əl-Bəlazuri Şamaxı şəhərinin əş-Şammax ibn Şucanın adını daşıdığını bildirir. Bir sıra tədqiqatçılar isə Şamaxı sözünün "Şam" və "əxi" (Şamın qardaşı) sözündən götürülməsini güman edirlər. Şamaxı sözünün ərəblər və ya ərəb

dili ilə əlaqələndirən digər mülahizələrin də mövcud olmasına rəğmən, bu şəhərin daha qədim tarixə malik olmasını nəzərə alsaq onun adının, qədim kimak tayfalarının adi ilə bağlı olub, qədim Alban şəhəri “Kemaxeya”dan yarandığı daha düzgündür.

Onu da qeyd edək ki, orta əsr ərəb müəllifləri əl-İstəxri, İbn Havqəl, Əl-Müqəddəsi, Yaqut əl-Həməvi və başqaları Şamaxını “gözəl”, “evləri daşdan tikilmiş”, “axar suları, bağları və gəzməli yerləri olan şəhər” kimi təqdim edir.

XI əsrin son rübünün əvvəlində naməlum müəllif tərəfindən yazılan "Tarixi əl-Bab" əsərinə görə Şamaxı şəhəri Şirvanşah Əbu Tahir Yezid ibn Məhəmməd tərəfindən bərpa olunaraq paytaxta çevrilmiş və onun şərəfinə Yezidiyyə adlandırılmışdır.

Şamaxı şəhəri Azərbaycan Şirvanşahlar dövlətinin mərkəzi kimi inkişaf etmiş, nəqliyyat yollarının əhəmiyyəti xeyli artmışdı. Ərəb müəlliflərinin məlumatına görə IX-XIII əsrlərdə Şamaxı qərbdən Bərdə-Gəncə-Tiflis, şimaldan Şabran-Dərbənd, şərqdən Xəzər dənizi, cənubdan Pirsaat çayı kənarı ilə uzanan karvan yolları vasitəsilə dünyanın bir çox ölkələri ilə iqtisadi, mədəni əlaqələr saxlayırdı.

Şamaxıda tapılmış Orta Asiya şəhərlərinə məxsus basma naxışlı saxsı qablar XI - XII əsrlərdə Şamaxının Orta Asiya şəhərləri ilə iqtisadi-mədəni əlaqələri olduğunu sübut edir. XII əsrdə Şamaxı Hindistanla, Çinlə də iqtisadi-mədəni əlaqələr saxlamışdı. Arxeoloji qazıntılar zamanı Şamaxıda tapılmış mis sikkələr, Çində istehsal edilmiş çini qablar, beynəlxalq ticarət əlaqələrinə xidmət edən karvansaraylar qədim Şamaxının tarixi ipək yolundakı rolunu sübut edir.

İbn əl-Əsir 1222-ci ildə Şamaxının zəbt edilib dağıdılmasını, şəhər əhalisinin monqol işğalçılarına qarşı qəhrəmancasına müqavimət göstərməsini parlaq surətdə təsvir edir. Şamaxı ətrafında arxeoloji qazıntılar aparılarkən monqol hücumu zamanı dağıdılan böyük ictimai bina aşkar edilmişdir. XIII əsrə aid təbəqələrdən aydın görünən yanğın izləri monqol qoşunlarının

Şamaxını dağıtmasına dair mənbələrin verdiyi məlumatı təsdiqləyir.

Tarixin sonrakı dövrlərində Şamaxının ticarət dövriyyəsində oynadığı rol müxtəlif mənbələr tərəfindən təsdiqlənir. 1434-cü ildə Qaraqoyunlu hökmdarı İsgəndərin Şirvana hücumu zamanı Şamaxı şəhəri amansızlıqla qarət olunur, dağıntılara məruz qalır. Bu, monqol yürüşlərindən sonra ən dağıdıcı basqın olmuşdur.

XV əsrin 30-80-ci illərində Azərbaycanın nisbətən sabit siyasi şəraitdə olması şəhər həyatının kifayət qədər yüksək inkişafını təmin etmişdir. Qaraqoyunlu hökmdarı Cahanşahın, Ağqoyunlu hökmdarı Uzun Həsənin dövründə şəhərlərin inkişafında xeyli irəliləyiş baş vermişdir. Uzun Həsənin islahatı şəhərlərin, o cümlədən Şamaxı şəhər təsərrüfatının canlanmasında yeni mərhələnin başlanğıcı olmuşdur.

XV əsrdə Şamaxıda 30-60 min nəfər yaşamışdır. Bu şəhər Azərbaycan miqyasında ən iri iqtisadi mərkəz idi. Kontarinin verdiyi məlumata görə Təbrizlə müqayisədə Şamaxı həyat üçün əlverişli olan məhsulların çoxluğu baxımından Təbrizdən üstün olmuşdur. 1538-ci ildə Şirvan ərazisi Səfəvilər dövlətinə birləşdirildikdən sonra Şamaxı şəhəri Şirvan bəylərbəyliyinin paytaxtına çevrilmişdir.

XVI əsrdə Cənubi Qafqazda ipək istehsalı və ticarətinin cəmləşdiyi şəhərlərdən biri məhz Şamaxı olmuşdur. Bu mənada Cenkinson Şamaxını “ gözəl kral şəhəri” adlandırmışdır. Şamaxıda rus, hind, türk, fars tacirlərinə xidmət edən karvansaraylar vardır. XVI əsrin II yarısında burada ingilis “Moskva şirkəti”nin daimi nümayəndəliyi açılmışdır. Moskva tacirləri Şamaxı bazarlarında Moskvada hazırlanmış sənətkarlıq məhsullarını satır, yerli malları, əsasən də xam ipəyi, ipək parçaları alırdılar.

1725-ci ildə Şamaxıda olmuş ingilis Henri Bryus öz xatirələrində, Şamaxı şəhərini Cənubi Qafqazın ən məşhur ticarət mərkəzi kimi qiymətləndirirdi.

Şamaxının ipək yolu üzərində yerləşməsi şəhərin iqtisadi inkişafı üçün əlverişli şərait yaratmışdır. Lakin 1192-ci ildə baş vermiş birinci və 1667-ci ildəki ikinci zəlzələ, müharibələr Şamaxının iqtisadi inkişafına müəyyən zərbə vurmuşdu. Belə ki, 1670-ci ildə Şamaxıya gəlmiş hollandiyalı səyahətçi Yan Streys qeyd edirdi ki, "məni ən çox təəccübləndirən o idi ki, şəhəri tamamilə yerlə-yeksan edən və viran qoyan həmin zəlzələdən 3 ildən də az müddət keçməsinə baxmayaraq, şəhər yenidən bərpa olunmuşdur". 1724-cü il Rusiya ilə Türkiyə arasında bağlanmış İstanbul müqaviləsi, Şirvana daxili muxtariyyətin verilməsi Şamaxı şəhərinin ticarət əlaqələrinin əvvəlki səviyyəyə çatmasına imkan yaratmışdı.

XVII əsr məşhur Osmanlı səyyahı Övliya Çələbi Şamaxı şəhərini belə təsvir etmişdir: "Qırx xanlıq, qırx səkkiz qəza olub, qırx nahiyəsi, 70 qalası, 1300-ə qədər abad kəndi var. Qədim və abad bir şəhərdir... Şəhər içində təxminən yeddi minə qədər torpaqla örtülü abad evləri var. Hər yerindən çay keçir. Bağ və bağçalarının hesabı yoxdur. 26 məhəlləsi var, Meydan və Şabran məhəllələri şəhərin çox gözəl yerində yerləşir. Evləri olduqca yaraşıqlıdır, 70-ə qədər mehrabı var". Övliya Çələbi şəhərdə 5 böyük məscid, 7 mədrəsə, 40 məktəb, 7 hamam, 44 daş karvansaray, iki yüzə qədər dükanın olduğunu qeyd edirdi.

Şamaxı şəhəri həmişə strateji məkan kimi qonşu dövlətlərin diqqət mərkəzində olmuşdu. XVIII əsrin əvvəllərində yaranmış beynəlxalq şəraitdən və Səfəvi imperiyasının zəifləməsindən yararlanan ermənilər Azərbaycan torpaqlarını ələ keçirmək üçün layihələr tərtib edərək özlərinə xaricdə havadarlar axtarmağa başladılar.

Rusiyada danışıqlar aparan İsrail Ori adlı erməni I Pyotru yürüşə şirnikləndirmək üçün Cənubi Qafqazda olan ermənilərin sayını süni şəkildə artıraraq, çara saxta, şişirdilmiş məlumatlar verir, tarixi Azərbaycan şəhərlərindən – Şamaxı, İrəvan, Naxçıvan və başqa şəhərlərimizdən azərbaycanlıları qovmaq və rus qoşunlarını burada möhkəmləndirmək kimi məkrli siyasət

hazırlayırdı. İ.Ori 1701-ci il iyulun 25-də I Pyotra rus qoşunlarını Cənubi Qafqaza yürüşə həvəsləndirmək məqsədi ilə 18 bənddən ibarət xüsusi hərbi müdaxilə planını göndərmişdi. O, öz məktubunda I Pyotrdan Cənubi Qafqaza yürüş zamanı Şamaxı şəhərini xüsusi nəzarət altında saxlamağı xahiş edirdi.

"Şamaxının tutulması Armeniya torpağına girmək üçün ilk açardır" – ifadəsini işlədən İ.Orinin planına görə 5 min atlı və 5 min piyadadan ibarət olan rus qoşunu gəmilərlə Niyazabada gəlməli, oradan quru yolla Şamaxı istiqamətində irəliləməli və xristian süvarisinin köməyi ilə Şamaxı şəhəri 2 saat müddətinə ələ keçirilməli idi.

Rusiya imperatorunun Şərq siyasətində şimal-şərqi Azərbaycan mühüm əhəmiyyət kəsb edirdi. Hətta Şirvan üsyanından əvvəl Peterburqda qarşıda duran yürüş barədə tərtib olunan sənədlərdə bu yürüş "Şamaxı ekspedisiyası" adlandırılırdı.

Xanlıqlar dövründə Şamaxı şəhəri xanlığın mərkəzi kimi yenə də iqtisadi və siyasi əhəmiyyətini saxlamışdı. XVIII əsrin əvvəllərində Şamaxıda olmuş ingilis səyyahı Con Bel şəhəri dağ döşündə amfiteatr şəklində tikilmiş şəhər kimi xatırlayırdı. Lakin Şamaxı şəhəri Nadir xan Əfşar tərəfindən 1734-cü ildə dağıdıldığı üçün əhalinin Yeni Şamaxıya köçürülməsi ilə əlaqədar Şamaxının adı tarixi ədəbiyyatda Köhnə Şamaxı kimi çəkilir. XVIII əsrin 70-ci illərində Şamaxıda 1000-ə yaxın evdə 5-6 min adam yaşayırdı. Şəhərlər inzibati cəhətdən məhəllələrə bölünürdü. S.Qmelinin verdiyi məlumata görə, Köhnə Şamaxı doqquz məhəlləyə bölünürdü: Yuxarı qala, Sarı¬torpaq, Qala bazar, Yəhudi, İmam, Meydan, Şahpəri, Gilandibli, Nar ağacı məhəllələri.

Xanlığın paytaxtı kimi özünün çiçəklənmə dövrünü yaşayan Köhnə Şamaxı sənətkarlıq mərkəzi olmaqla yanaşı, həm də böyük ticarət mərkəzi idi. S.Solovyovun təbirincə desək, Şamaxı şəhərinin əhalisi sanki ticarət üçün yaranmışdır.

1768-ci ildə Şamaxı xanlığı qubalı Fətəli xan tərəfindən tabe edilərkən, Fətəli xan Dərbənd, Quba və Salyandan Köhnə

Şamaxıya 1000 ailə köçürür. 1769-cu ilin iyulunda Yeni Şamaxı dağıdılır və əhalisi Köhnə Şamaxıya köçürülür.

1789-cu ildə qubalı Fətəli xanın ölümündən sonra, Şamaxı xanlığında hakimiyyət uğrunda daxili çəkişmələr baş verir. 1792-ci ildə həmin mübarizədə Mustafa xan qalib gəlir. Mustafa xan mərkəz kimi Köhnə Şamaxını yox, Yeni Şamaxını seçir. Lakin əsrin sonunda bütün əhali Köhnə Şamaxıya qayıdır. Beləliklə, 1775-ci ildən xaraba vəziyyətində qalan Şamaxı şəhəri yenidən öz əvvəlki yerində bərpa edilib tikilməyə başladı.

Bu qədər dağıntı və zorakı köçürmələrə baxmayaraq, Şamaxı şəhəri xanlıqlar dövründə də sənətkarlıq mərkəzi kimi öz əvvəlki şöhrətini qoruyub saxlaya bilmişdi. XVIII əsrin sonlarında Azərbaycanda olmuş S.Bronevskinin təbirincə desək, «ticarət və sənətin qədim ruhu Şamaxıda hələ tamamilə sönməmişdi».

Rusiyadan İrana və Hindistana, yaxud əks istiqamətə mal aparan tacirlər çox zaman Bakı və Niyazabad limanları vasitəsilə Şamaxıya gəlir, burada mal mübadiləsi aparırdılar. Bakıdan Tiflisə gedən yol Şamaxıdan keçdiyi üçün Şamaxının ticarət dövriyyəsində oynadığı rol inkaredilməzdir. S.Zevakin Şamaxının hələ XVI-XVII əsrlərdə Rusiyanın Səfəvi dövləti ilə ticarət əlaqəsinin mərkəzi olduğunu göstərirdi. 1721-ci ildə isə Fransa sarayına xarici və Rusiya ticarətində Şamaxı ipəyinin əsas rol oynadığı haqqında məlumatlar çatırdı.

1805-ci ilin sonlarında xeyli müqavimətdən sonra Şamaxı xanlığı daxili müstəqilliyi saxlanılmaqla Rusiya imperiyasının tərkibinə qatılır. 1820-ci ildə isə çar Rusiyası Şamaxı xanlığını tamamilə ləğv edir. 1846-cı ildə Şamaxı şəhəri quberniya mərkəzinə çevrilir.

1917-ci il fevral inqilabı nəticəsində çarizmin devrilməsi Azərbaycanın ictimai-siyasi həyatında ciddi dəyişikliklərə səbəb oldu. Şamaxıda da Müsəlman Milli Şurası yaradıldı. Şuranın əsas məqsədi Şamaxının azərbaycanlı əhalisini milli ideallar ətrafında birləşdirmək, onun maraq və mənafelərini müdafiə etməkdən ibarət idi.

Lakin 1917-ci ilin sonları - 1918-ci ilin əvvəllərində Cənubi Qafqazda, o cümlədən Bakıda formalaşmış hərbi-siyasi şərait Şamaxıya da təsirsiz ötüşmədi. 1918-ci ildə S.Şaumyanın fitvası ilə erməni silahlı dəstələri, Şamaxıda Sovet hakimiyyəti qurmaq adı altında, Bakıda törədikləri dəhşətli qırğından sonra ikinci qırğını Şamaxı qəzasında törətmişdilər. Şaumyan 1918-ci ilin aprelin 13-də Sovet Rusiyası Xalq Komissarlar Sovetinə göndərdiyi məktubda Şamaxıya artilleriya və pulemyotları olan «yeni dəstələr» göndərdiyini etiraf edirdi. S.Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti erməni hərbi hissələrini Şamaxıya göndərərək yerli azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətdilər.

Ermənilər Şamaxı şəhərində azərbaycanlılara məxsus 1 milyard manatlıqdan yuxarı dəyəri olan əmlakı qarət etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandıraraq məhv etmişlər. Şəhərdə 13 məscid, o cümlədən böyük tarixi abidə olan «Cümə məscidi» yandırılmışdır. M.Ə.Rəsulzadə qeyd edirdi ki, əski Şirvanşahların bu qədim paytaxtı bir həmlədə atəşə verilib, məşhur tarixi camiyə varıncaya qədər yaxıldı. Yalnız erməni məhləsi salamat buraxıldı.

Şamaxı şəhəri və Şamaxı qəzası 1918-ci ilin iyul ayının 18-də Qafqaz İslam Ordusu və Azərbaycan korpusunun birgə apardıqları uğurlu döyüş əməliyyatları nəticəsində azad edilənə qədər daşnak-bolşevik qüvvələrinin işğalı altında qaldı.

Şamaxı şəhəri düşmənlərdən azad edildikdən sonra sağ qalmış əhali yavaş-yavaş geri dönməyə başladı. Şəhərdə həyat tədricən öz axarına düşürdü. Az müddət ərzində qəddi-qamətini düzəldən Şamaxı Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-siyasi, mədəni həyatında mühüm rol oynamış mərkəzə çevrildi.

1969-cu ildə Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə Şamaxının yenidən inkişafı və tərəqqisi başlamışdı. Onun şəxsi tapşırığı ilə hazırlanmış «Şamaxı rayonunun iqtisadiyyatının və mədəniyyətinin daha da inkişaf etdirilməsi tədbirləri haqqında» Azərbaycan KP MK və Nazirlər Sovetinin 1978-ci il 21 yanvar

tarixli qərarından sonra rayonun sosial-iqtisadi sahələrinin inkişafı böyük vüsət aldı.

1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Şamaxının inkişafının yeni mərhələsinə başladı. Bu dövrdə Şamaxı rayonunun daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, iqtisadiyyatın sabitləşməsi istiqamətində xeyli işlər görülmüşdü.

24 noyabr 2003-cü il tarixində ölkə prezidenti İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» fərman və dövlət başçısı tərəfindən təsdiq olunan «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı» digər bölgələrlə yanaşı, Şamaxıda sosial-iqtisadi tərəqqidə, həyat səviyyəsinin daha da yüksəldilməsi və məşğulluğun təmin edilməsi sahəsində dönüş yaratmışdır.

Belə ki, «Star» LTD şirkətinə daxil olan Şamaxı xalça sexində 40 ədəd dəzgah quraşdırılmış və bu sexdə «Quba-Şirvan», «Naxçıvan», «Qarabağ» və «Təbriz» xalçaları toxunur. 2005-ci ildə «Star» LTD şirkəti tərəfindən tikilib istifadəyə verilmiş Şamaxı televizor istehsalı zavodunda «Toshiba» firmasının ehtiyat hissələri əsasında «Star» markalı 37, 54, 72, 74 dioqanallı «LCD»lər, «Plazma», «CV»lər, «VCD»lər və rəqəmli «Resiverlər» istehsal edilir. 2006-cı ildən fəaliyyət göstərən «Azsamand» minik avtomobili istehsalı zavodunun tikintisinə «Star» LTD şirkəti tərəfindən 10 milyon ABŞ dolları həcmində investisiya qoyulmuşdur.

2007-ci ildə məişət cihazları istehsal edəcək «Azərelektronika» zavodunun tikintisi başa çatdırılmışdır. Şamaxı şəhərində möhtəşəm Heydər Əliyev muzeyi tikilib istifadəyə verilmiş, mədəniyyət sarayı yüksək səviyyədə təmir olunmuş, yeni və müasir avadanlıqlarla təmin edilmişdir. Həmçinin, S.Ə.Şirvani adına Tarix-diyarşünaslıq muzeynin binası əsaslı təmir olunmuş,

muzeyin həyətində, Şamaxı rayonundan olan 12 böyük şəxsiyyətin büstü qoyulmuşdur..

Bu gün Şamaxı özünün böyük intibah dövrünü yaşayır. Ulu öndərin və prezident İlham Əliyevin gündəlik qayğısı sayəsində Şamaxı özünün tarixi ənənələrini saxlamaqla müstəqil Azərbaycanın ən müasir sənaye, kənd təsərrüfatı və mədəniyyət mərkəzinə çevrilmişdir.





# Ədəbiyyat

## Kitablar


**1970**

**1. Şamaxı abidələri** /Ş.Fətullayev; red. M.Nəcəfov.- Bakı: Gənclik, 1970.- 18 s.: fotoşəkilli.

**1996**

**2. Şamaxı - Şam nağılı** /Qəşəm İsabəyli.- Bakı: Cik-Cik, 1996.- 14 s.: ill., 20 sm.

**2009**

**3. Dağlıq Şirvanın toponimləri** /N.S. Bəndəliyev; elmi red. B.Ə. Budaqov; Azərb. Müəllimlər İnstitunun Şamaxı Filialı.- Bakı: Elm, 2009.- 350 s.

**4. Şamaxı-təhsil tarixi** [monoqrafiya] /Ə.Məmmədov, V.Əliyev; elmi red. Ə.Xəlilov.- Bakı: Zərdabi LTD, 2009.- 527 S.: fotoşər.

**2010**

**5. Beytül-səfa ədəbi məclisi** /S.Qəniyev; red. N.Məmmədli; Azərb.Yazıçılar Birliyi Şamaxı Bölməsi; Azərb. Müəllimlər İn-tu Şamaxı Filialı.- Bakı: Elm və təhsil, 2010.-189 s. fotoşək.

**2012**

**6. Mirzə Ələkbər Sabir-150**: biblioqrafiya /tərt. M. Həsənova, G. Misirova; ixtisas red. və burax. məs. K. Tahirov; red. M. Vəliyeva; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası.- Bakı: M.F. Axundov adına Milli kitabxana, 2012.- 382 s.

**7. Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairləri:** elmi-kütləvi oçerklər /B.Nəbiyev; elmi red. A.Rüstəmli;

Azərbaycan Milli Elmlər Akademiyası, Nizami adına Ədəbiyyat İnstitutu.- Baki: Ozan, 2012.- 287 s.

**2013**

**8. Seyid Yəhya Bakuvi**: həyatı, yaradıcılığı və məktəbi /M. Rıhtım; [ön söz E. İskəndərov]; azərb. dilinə uyğ. F. Əliyeva; red. M.Təkləli; Azərb. Resp. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi.- Bakı: Elm və təhsil, 2013.- 215 s.

**9. Şamaxı, 2003-2013: hədəflər, inkişaf, nəticələr** [İzomaterial]: [fotoalbom] /Azərb. Resp. İqtisadi İnkişaf Nazirliyi.- Bakı: 2013.- 127 s. rəngli fotoşək.

**10. Şamaxı: tarixi-etnoqrafik tədqiqat:** [monoqrafiya] /N. H. Ciddi; elmi red. T. Bünyadov (ön söz), S. Məhərrəmova; AMEA, Arxeologiya və Etnoqrafiya İn-tu.-Baki: 2013.- 191.s.

**2014**

**11. Qafqaz səfəri** /A.Düma; frans. tərc. ed. Q.Paşayev, H. Abbasov.- Bakı: Qanun, 2014.- 192 s.

**12. Şamaxı xanlığı** /B. Niyazlı; red. Ə.İ. Abdullayev.-Bakı: Nurlar, 2014.- 399 s.: port.

**2015**

**13. Şamaxı ensiklopediyası** /ideya müəl. və naşir E. Süleymanov; baş red. F. Babayev.- Bakı: Şərq-Qərb, 2015.- 430 s. fotoşək.

# Dövri mətbuat materialları

**1990**

**14. Şamaxi ədəbi-mədəni mühiti "Əkinçi" qəzetində** / A. Bayramoğlu //Elm.- 1990.- 11 avqust.

**2004**

**15. Şamaxı teatrının tarixindən** /A. Dadaşova //Qobustan.- 2004.- № 2.- S.85.

**2009**

**16. Müsəlman aləminin ən böyük rəsədxanası:** Şamaxı Astrofizikası yenidən qurulur //Ekran-efir.- 2009.- 31 iyul.- s.2

**17. Şairlər diyarı qədim Şamaxı Azərbaycan Yazıçılar Birliyi-75 /**F.Xəlilzadə //Azərbaycan.- 2009.- 11 sentyabr.- S.5.

**18. Şamaxı şəhərindəki Cümə məscidi**: Dövlət tarix-memarlıq abidəsinin bərpası ilə əlaqədar tədbirlər haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı; 24 dekabr 2009-ci il Azərbaycan Respublikası Prezidenti (2003-; İ.H. Əliyev) //Azərbaycan.- 2009.- 25 dekabr.- S.4

**19. Şamaxı: Qədim yurdun ağ günləri** /İ.Pənahov //Respublika.- 2009.- 13 mart.- S.5.

**2010**

**20. "Sabir poeziya günləri":** [Bakıda, Şamaxıda və Ağsuda tədbirlər keçirildi] /Vüsal //Mədəniyyət.- 2010.- 2 iyun.- S. 4 .

**21. Şamaxı təhsilinin tarixi:** mənbələr, faktlar: Yeni nəşrlər /Ş.Məmmədov //Azəbaycan müəllimi.- 2010.- 9 sentyabr.- S.8.

**2011**

**22. Qarabağ xanlığının Şamaxı xanlığı ilə əlaqələri** /N.Bayramova //Olaylar.- 2011.- 10-12 sentyabr.- S.15.

**23. Qədim Şamaxı gəncləşir** //Azərbaycan.- 2011.- 12 avqust.- S. 1.

**24. “Muzeyimizdə Şamaxıya aid dəyərli eksponatlar qorunur”** /F.Zamanova //Palitra.- 2011.- 21 dekabr.- S. 6.

**25. Sufi fəlsəfəsinin mistik ocağı- Diri -Baba türbəsi**: Gözəl memarlıq nümunəsi... /Azadlıq.- 2011.- 26 oktyabr.- S.14.

**26. Şamaxı – ulu Şirvanın qədim diyarı:** Minillik tarixi olan Şirvanşahlar dövləti burada mövcud olmuşdur /M.Nərimanoğlu //Azərbaycan.- 2011.- 17 avqust.- S.5.

**27. “Şamaxı Gülüstanında bir qala var..."** //Azadlıq.- 2011.- 12 fevral.- S. 13

**28. Şamaxıda Sabir qiraət müsabiqəsi** /T.Aydınoğlu //Xalq qəzeti.- 2011.- 27 may.- S.7.

**29. “Şamaxının Azərbaycanın mədəniyyətinin inkişafında xüsusi rolu olu**b”/M.Kamilova //Palitra.- 2011.- 14 dekabr.- S.6.

**30. Şirvanın şöhrəti qədim Şamaxı** /M.Əhmədoğlu //Ədalət.- 2011.- 13 dekabr.- S.7.

**31. Şirvanşahlar - Şamaxı və şamaxılılar...** /Gülabbas //Azadlıq.- 2011.- 29 dekabr.- S. 13.

**2012**

**32. Arxeoloqlar Şamaxıda böyük bir bina aşkar ediblər** /Ehtimala görə, bu, Şirvanşahlar sarayının alt hissəsidir /Ayna.- 2012.- 4 avqust.- S.20.

**33. İmperiyanin Birinci Dövlət Dumasında Şamaxı izi...** /R. Novruzoğlu //Respublika.- 2012.- 28 mart.- S.10;14.

**34. Sabirin yurdunda şeir-sənət bayramı:** Böyük ədibin 150 illik yubileyi münasibətilə keçirilən “Poeziya günü”ndə müxtəlif ölkələrdən qonaqlar, mədəniyyət xadimləri, sənət sevərlər iştirak edirdi /R. İsayeva //Mədəniyyət.- 2012.- 1 iyun.- S.8;9.

**35. Şamaxı torpağının yetişdirdiyi böyük Azərbaycan şairləri** //Ayna.- 2012.- 31 mart.- S.20.

**36. Şamaxı: 100 il”Məxfi qrif” altında** /R. Novruzoğlu //Kredo.- 2012.- 19 may.- S.14.

**37. Şamaxıda M.Ə. Sabirin 150 illik yubileyinə həsr olunmuş ədəbi-bədii tədbir keşirilmişdir** //Azərbaycan.- 2012.- 31 may.- S.14.

**38. Şamaxıda Şirvanlar dövlətinin ən böyük sarayı aşkar olunmuşdur** /Xalq qəzeti.- 2012.- 2 avqust.- S.6.

**39. Şamaxıdakı "Gülüstan"qalasında XI-XII əsrlərə aid müxtəlif tikililər və maddi-mədəniyyət nümunələri aşkar edilib** / Xalq qəzeti.- 2012.- 22 iuyl.- S.5.

## 2013

**40. Aleksandr Düma onun qonağı olmuşdu** /"Dərbənddən Tiflisə qədər belə heyranedici ev görməmişdim" /S.Fərəcov //Mədəniyyət.- 2013.- 15 fevral.- S.15.

**41. Folklor konfransı** /A.Cəmil /Ədəbiyyat qəzeti.- 2013.- 7 iyun.- S.7.

**42. Folklorun toplanması və sistemləşdirilməsi problemləri** //Mədəniyyət.- 2013.- 12 iuyn.- S.4.

**43. "Şamaxı qırmızı terrorun hədəfində** (XX əsrin 30-40-ci illər repressiyaları)" kitabı /M.R. Əsədli //Bakı xəbər.- 2013.- 8 yanvar.- S.14

## 2014

**44. Eramızdan yaşlı cavan Şamaxı** /M.Əhmədoğlu // Ədalət.- 2014.- 22 iyul.- S.3.

**45. Fransanın azərbaycanlı yazıçısı.**.: Onu həm də "Şamaxı şahzadəsi" adlandırırdılar /Ü. Tahirqızı //Xalq cəbhəsi.- 2014.- S.13.

**46. Qafqazın ən qədim müsəlman məbədi...**:1300 illik tarixə malik Cümə məscidi haqqında müfəssəl məlymatlar /R. İbrahimov //Bizim yol.- 2014.- 1 aprel.- S.13.

**47. Şamaxı - Xəqani sözündə, bizim gözümüzdə** /Ə. Süleyman // Ədalət.- 2014.- 12 aprel.- S.15.

**2015**

**48. 1918-ci il Şamaxı soyqırımının aşıq, el şairi və alim şəhidləri** /S. Qəniyev //Kredo.- 2015.- 19 mart.- S.3.

**49. 2015-ci ilin "Xalq yaradıcılığı paytaxtları"**: Şamaxı şəhəri "Ədəbiyyat paytaxtı", Qax şəhəri "Milli mətbəx paytaxtı" seçilib //Mədəniyyət.- 2015.- 27 fevral.- S.2.

**50. 2015-ci ilin ədəbiyyat və milli mətbəx paytaxtları təqdim edildi:** "Mədəniyyət paytaxtları anlayışını Azərbaycanda tətbiq etmək məqsədilə həyata keçirdiyimiz proqram müsbət nəticə verib" /F.Abdullayeva //Mədəniyyət.- 2015.- 6 mart. - S. 3.

**51. Azərbaycanın dövlətçilik və mədəniyyət tarixində Şamaxının yeri və rolu** /S. Abdullayeva //525-ci qəzet.- 2015.- 6 fevral.- S. 6.

**52. Azərbaycanın dövlətçilik və mədəniyyət tarixində Şamaxının** yeri **və rolu** / S.Abdullayeva // 525-ci qəzet.- 2015.- 17 fevral.- S.6.

**53. Bölgələr "paytaxt" olanda...:** [Qax şəhərinin "Milli mətbəx paytaxtı" və Şamaxının "Ədəbiyyat paytaxtı" elan olunması ilə əlaqədar təntənəli tədbirlər keçirilib] //Mədəniyyət.- 2015.- 15 may.- S. 8.

**54.** "**Ədəbiyyat paytaxtı"nda Bəxtiyar Vahabzadənin yubileyi qeyd olunub** //Mədəniyyət.- 2015.- 14 oktyabr.- S. 7.

**55.** "**Ədəbiyyat paytaxtı"nda dəyirmi masa** //Mədəniyyət.- 2015.- 2 oktyabr.- S. 3

**56.** "**Ədəbiyyat paytaxtı"nda dəyirmi masa** //Mədəniyyət.- 2015.- 18 dekabr.- S. 2.

**57. "Ədəbiyyat Paytaxtı"nda Seyid Əzimin 180 illiyi qeyd edilib //Mədəniyyət**.- 2015.- 25 dekabr.- S. 7.

**58. XIX əsr Şamaxı ədəbi mühiti**: Murad Mirzəli oğlu, Mustafa Tağı oğlu, Həsən Çəp, Əbbürrəhman Əfəndi, Kərbəlayi Əli Əkbərin yaradıcılığı haqqında /S.Qəniyev //Xalq cəbhəsi.- 2015.- 18 avqust.- S.14

**59. XIX əsrdə Şamaxının yaradıcı mühiti** /S.Qəniyev //Xalq cəbhəsi.- 2015.- 21 avqust.- S.14.

**60. Jozef Artur de Qobino və onun "Şamaxı rəqqasəsi" əsəri** /Ə. Zeynalov //Ədəbiyyat qəzeti.- 2015.- 3 oktyabr.- S.30 - 31.

**61. Qədim Şamaxı - yeni paytaxt** /R.Xəlilzadə //Mədəniyyət.- 2015.- 11 mart.- S. 11.

**62. "Paytaxtdan bölgələrə" layihəsinə start verilib** /S.Abdullayeva //525-ci qəzet.- 2015.- 28 oktyabr.- S.7.

**63. "Paytaxtdan bölgələrə" çərçivəsində ilk tədbir Şamaxıda olub /S.Abdullayeva** //525-ci qəzet.- 2015.- 31 oktyabr.- S.15.

**64. "Paytaxtdan bölgələrə" layihəsinin ilk tədbiri Şamaxıda keçirildi:** Azərbaycanın 8 məşhur rəssamının əsərləri 10 gün ərzində "Ədəbiyyat paytaxtı"nda nümayiş olunacaq / F.Hüseynov // Mədəniyyət.- 2015.- 30 oktyabr.- S. 3.

**65. Sabir bu gün** /R.Xəlilzadə //Mədəniyyət.- 2015.- 5 iyun.- S.12.

**66. Şamaxı mədəniyyətinin keçmişini araşdırarkən..** /S.Qəniyev //Xalq cəbhəsi.- 2015.- 17 oktyabr.-S.14.

**67. Şamaxı muğam məclisləri və Azərbaycan muğamının hərtərəfli inkişafı...** /İ.Sarıyeva //Bakı xəbəri.- 2015.- 26 yanvar.- S.15.

**68. "Şamaxı şəhəri "Azərbaycanın Ədəbiyyat Paytaxtı" elan edildi:** /S.Qəniyev// Kredo.- 2015.- 9 oktyabr.- S.9.

**69. Tariximizin şahidi Şamaxı** /C.Rüstəmov //Ədalət.- 2015.- 21 aprel.- S.7.

**70. Yeni Xalq Yaradıcılığı Paytaxtları elan edilib** /S.Abdullayeva //525-ci qəzet.- 2015.- 27 fevral. - S. 7.

## 2016

**71. Hardan başlanır vətən** /M.Əhmədoğlu // Ədalət.- 2016.- 2 aprel.- S.4.

# Dissertasiyalar

### 1993

**72. Şamaxı ədəbi mühiti** (XIX əsrin ortalarından mart 1918-ci ilə qədər) /A.B.Məmmədov. filol. e. d-ru a. dər. al. üçün təq. ed. dis: 10.01.03. AzEA Nizami adına Ədəbiyyat İn-tu. -Bakı: 1993.- 303 s.

### 2007

**73. Şamaxı xanlığı və onun qonşu dövlətlərlə əlaqələri** /N. Ş. Bayramova tarix e. n. al. dər. a. üçün təq. al. üçün dis. AMEA, A.A. Bakıxanov ad. Tarix İn-tu Bayramova, Nailə Şafaddin qızı.- Bakı: 2007.- 164 s. xəritə.

### 2013

**74. Azərbaycanın Şirvan bölgəsinin ilk orta əsr arxeoloji abidələri** (Şamaxı və Qobustan rayonlarının materialları əsasında) (tarixi-arxeoloji tədqiqat) / L.Ş. Əhmədova tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. AMEA, Arxeologiya və Etnoqrafiya İn-tu.-Bakı: 2013.- 179 s. şək.

## Rus dilində

### 2010

**75. Гюлистан в Шемахи** /С.Велиев //Каспий.- 2010.- 4 декабря.- С.11.

**76. Президент Азербайджана Ильхам Алиев ознакомился с ходом работы по реставрации и реконструкции, проводимой по инициативе Фонда Гейдара Алиева в Шемахинской Джума мечети** //Бакинский рабочий.- 2010.- 23 октября.- С.1.

### 2011

**77. В Шемахинской крепости Гюлистан найдены фрагменты дворцовой бани** //Ежедневные новости.- 2011.- 24 августа.- С.5.

**78. Вечно живая сатира: В Баку и Шемахи прошли традиционные Дни поэзии Сабир**а /В.Гусейнов //Каспий.- 2011.- 2 июня.- С.8.

### 2013

**79. Шемаха.** Март-июль 1918 г. Азербайджанские погромы в документах /сост. Рустамова-Тогиди, Солмаз Али кызы ; гл. консультант Э. Махмудов.- том 2.- Баку: 2013.- 872 стр.

### 2015

**80. Из регионов-в столицу:** Выставка портретов великих азербайджанских поэтов и писателей в Шемахи // Каспий.- 2015.- 4 ноября.- С.12.

### 2014

**81. Описание города Шемахи:** [перепечатано с XI т. 2-го вып. "Известий Кавказского Отдела Императорского

Русского Географического Общества] /сост. С.П. Зелинский.- Баку: 2014.- 36 с.

## İnternet resursları:

www.azertac.com
www.anl.az
www.clb.az
www . mətbuat.az
www. mediya.az
www.  sia.az

# Azərbaycanın ədəbiyyat paytaxtı Şamaxı

(tövsiyə biblioqrafiyası)

**Komputer yığımı**
**və dizayn:** **Tünzalə Əzizova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F. Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:100
Pulsuz.